Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 19 ” iyun tarixli
184 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**“Regional Su Meliorasiya” Qapalı Səhmdar Cəmiyyətinin**

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. “Regional Su Meliorasiya” Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) “Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” və “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti” publik hüquqi şəxslərin yenidən təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanına (bundan sonra – Fərman) əsasən Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin çevrilmə yolu ilə yenidən təşkil edilmişdir. Cəmiyyət “Regional Su Meliorasiya Xidməti” publik hüquqi şəxsin hüquqi varisidir və həmin publik hüquqi şəxsin hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçmişdir.

1.2. Cəmiyyət meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını həyata keçirən, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərləri (bundan sonra – iri şəhərlər) istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat)-içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini (bundan sonra – müvafiq sahə) həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxsdir.

1.3. Cəmiyyət Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (bundan sonra – Agentlik) tabeliyində fəaliyyət göstərir.

1.4. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və

sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.5. Cəmiyyət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.6. Cəmiyyətin müstəqil balansı, əmlakı, bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri həkk edilmiş möhürü, habelə müvafiq ştampları, blankları və loqotipi (emblemi) vardır.

1.7. Qanuna uyğun olaraq Cəmiyyətin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Cəmiyyət məhkəmədə, həmçinin arbitrajlarda iddiaçı və ya cavabdeh qismində çıxış etmək hüququna malikdir.

1.8. Cəmiyyətin rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda – "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti;

1.8.2. qısaldılmış halda – "Regional Su Meliorasiya" QSC.

1.9. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, AZ1000, Üzeyir Hacıbəyli küçəsi, 80, Hökumət evi.

## 2. Cəmiyyətin fəaliyyət istiqamətləri

2.1. Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, balansında olan içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını təmin etmək;

2.1.2. müvafiq inkişaf konsepsiyalarında və dövlət proqramlarında nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

2.1.3. meliorasiya və irriqasiya sahəsində xidmətləri göstərmək;

2.1.4. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyəti həyata keçirmək, habelə istehlakçıların məişət (təsərrüfat)-içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, tullantı və yağış sularının axıdılması xidmətlərini göstərmək;

2.1.5. balansında olan hidrotexniki qurğuların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirmək;

2.1.6. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkisinin qarşısının alınması sahəsində tədbirlər həyata keçirmək;

2.1.7. su təhlükəsizliyinin təmin edilməsində iştirak etmək;
2.1.8. müvafiq sahənin inkişafını təmin etmək;
2.1.9. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Cəmiyyətin vəzifələri və hüquqları

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Cəmiyyətin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. dövlət su kadastrının, habelə yerüstü və yeraltı suların dövlət uçotunun aparılmasında iştirak etmək;

3.1.3. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) suların vəziyyətinə zərərli təsir edən texniki qurğuların, avadanlığın, müəssisələrin (və ya onların bir hissəsinin) və digər obyektlərin istismara buraxılmasının qadağan edilməsi barədə, habelə onların istismarının məhdudlaşdırılması, dayandırılması və fəaliyyətinin qadağan edilməsi ilə bağlı Agentliyə təkliflər vermək;

3.1.4. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su obyektlərinin, o cümlədən içməli su təchizatı mənbələrinin sanitar-mühafizə zonalarının və dairələrinin rejiminin təyin edilməsində iştirak etmək, balansında olan su təchizatı və kanalizasiya sistemi obyektlərində qanunda nəzərdə tutulmuş sanitar-mühafizə zonalarının yaradılması və ona nəzarətin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;

3.1.5. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və onlardan istifadə qaydasının müəyyən edilməsində iştirak etmək;

3.1.6. yeraltı və yerüstü suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün tədbirlər planının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.7. təbii fəlakət və texnogen qəzalar nəticəsində zədələnmiş və ya sıradan çıxmış balansında olan su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflər hazırlamaq;

3.1.8. su təsərrüfatı tədbirlərinin və su ehtiyatlarına Azərbaycan Respublikasının perspektiv tələbatının müəyyən edilməsində iştirak etmək, su ehtiyatlarından kompleks istifadə və həmin obyektlərin mühafizəsinin baş sxeminin, hövzə və ərazi sxemlərinin hazırlanmasında iştirak etmək;

3.1.9. su itkisinin qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi ilə əlaqədar aqrar sahədə müasir suvarma sistemlərinin tətbiqinin təşviqinə dair təkliflər vermək;

3.1.10. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) sudan qənaətlə istifadə olunmasını, o cümlədən itkilərin qarşısının alınmasını və içməli suyun keyfiyyətinin texniki normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunlaşdırılmasını həyata keçirmək;

3.1.11. balansında olan meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılmasını təmin etmək;

3.1.12. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su mühafizə zonalarındakı torpaqlardan istifadəyə dair Agentliyə rəy bildirmək;

3.1.13. balansında olan hidrotexniki qurğuların təhlükəsizliyinə təsir edən tikinti fəaliyyətinin və konservasiya işlərinin dayandırılması barədə təkliflər vermək;

3.1.14. su obyektlərinin, balansında olan hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması barədə Agentliyə təkliflər vermək;

3.1.15. dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısının tərtib edilməsində iştirak etmək;

3.1.16. Cəmiyyət tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunu aparmaq;

3.1.17. su obyektlərinin təyinatından asılı olaraq ölkənin rayon və şəhərlərində suyun tələbata uyğun paylaşdırılmasını təmin etmək;

3.1.18. su ehtiyatlarından istifadə sahəsində proqnozların və layihələrin hazırlanmasında iştirak etmək;

3.1.19. su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarlarının doldurulub-boşaldılma rejimlərinin müəyyən edilməsində iştirak etmək;

3.1.20. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumatların toplanılmasında iştirak etmək;

3.1.21. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərində baş vermiş qəzaların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində iştirak etmək;

3.1.22. ərazi planlaşdırılması sənədlərinə dair Agentliyə təkliflər vermək;

3.1.23. ölkə, su hövzələri və inzibati ərazi vahidləri üzrə su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək;

3.1.24. meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin dayanıqlı fəaliyyətini təmin etmək məqsədilə ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) tikintiyə icazə verilməsinə dair Agentliyə rəy bildirmək, tikinti obyektlərinin istismarına icazə üçün istismara hazır olması barədə sənədlər vermək;

3.1.25. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün hüquqi və fiziki şəxslərin müraciətləri əsasında mövcud sistemin və qurğuların texnoloji imkanlarını nəzərə alaraq, müvafiq texniki şərtlər vermək və həmin şərtlərə əməl edilməsi üzərində nəzarəti həyata keçirmək;

3.1.26. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.27. su ehtiyatlarının idarə edilməsi sahəsində müasir metodların tətbiqi barədə təkliflər vermək;

3.1.28. transsərhəd su obyektlərinin, hidrotexniki qurğuların, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarında iştirak etmək;

3.1.29. transsərhəd su obyektlərindən, hidrotexniki qurğulardan, meliorasiya və irriqasiya sistemlərindən istifadə sahəsində beynəlxalq müqavilələrin layihələrinin hazırlanmasında iştirak etmək;

3.1.30. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) sudan ödənişli istifadəni həyata keçirmək;

3.1.31. meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin pasportlaşdırılmasında, habelə meliorasiya və irriqasiya sistemlərinin kadastrının aparılmasında iştirak etmək;

3.1.32. dövlət mülkiyyətində olan meliorasiya, irriqasiya, qış otlaqlarının su təminatı sistemlərinin istismarını, sel və daşqınlara qarşı mübarizə tədbirlərini həyata keçirmək, eləcə də bu sahədə xidmətlər göstərmək;

3.1.33. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını həyata keçirmək, eləcə də bu sahədə xidmətlər göstərmək;

3.1.34. Sudan İstifadəedənlər Birliklərinin (bundan sonra – Birliklər) xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchizatını həyata keçirmək;

3.1.35. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını həyata keçirmək;

3.1.36. “Meliorasiya və irriqasiya haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən Birliklərin reyestrini aparmaq və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.37. meliorasiya və irriqasiya sahəsində ölkə və regional miqyaslı proqramların hazırlanmasında və həyata keçirməsində iştirak etmək;

3.1.38. su və su təsərrüfatı obyektlərindən Cəmiyyət tərəfindən götürülən suların bölüşdürülməsini təmin etmək;

3.1.39. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu təşkil etmək və monitorinqini aparmaq;

3.1.40. suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarına nəzarəti həyata keçirmək;

3.1.41. sudan istifadə ilə bağlı dövlət tənzimləməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşdırılmasında iştirak etmək və bu sahədə Agentliyə təkliflər vermək;

3.1.42. ölkə əhəmiyyətli və rayonlararası suvarma sistemləri üzrə sudan istifadəyə dair ümumsistem planlarını hazırlamaq;

3.1.43. müəyyən müddət üçün sudan istifadə limitlərini müəyyən etmək;

3.1.44. balansında olan hidrotexniki qurğuların təhlükəsizlik bəyannamələrini tərtib etmək;

3.1.45. balansında olan su təchizatı və tullantı sularının emalı və axıdılması sistemlərinin, sutəmizləyici qurğularının, nasos stansiyalarının, su kəmərlərinin istismarı, təmiri və onlara texniki xidmət göstərilməsi işlərini təşkil etmək;

3.1.46. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su təchizatı üçün suyun mənbədən götürülməsini, emalını, nəqlini və satışını həyata keçirmək;

3.1.47. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) yağış və tullantı sularının toplanması, təmizlənməsi, təkrar istifadəsi və kənarlaşdırılması sahəsində fəaliyyəti həyata keçirmək;

3.1.48. ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) su təchizatı sahəsində işlərin və xidmətlərin göstərilməsi üçün dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslərlə müvafiq müqavilə bağlamaq;

3.1.49. istehsal olunan suyun və axıdılan çirkab sularının miqdarının təyin edilməsi üçün sərfölçənlərin və suölçmə cihazlarının quraşdırılmasını təmin etmək;

3.1.50. texniki normativ hüquqi aktlara müvafiq olaraq içməli, məişət-təsərrüfat və sənaye-çirkab sularının keyfiyyət göstəricilərinin analitik nəzarətini təşkil etmək;

3.1.51. meliorasiya, irriqasiya, su təchizatı və kanalizasiya sisteminin yaxşılaşdırılması və inkişafı istiqamətində tələb olunan investisiya proqramlarının hazırlanması üçün təkliflər vermək;

3.1.52. müvafiq sahədə "Coğrafi İnformasiya Sistemi"nin (GİS) formalaşdırılmasını, aparılmasını və təkmilləşdirilməsini həyata keçirmək;

3.1.53. "Elektron su təsərrüfatı" informasiya sisteminə fəaliyyət istiqamətlərinə aid məlumatları daxil etmək;

3.1.54. qanunvericilikdə nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək, müvafiq məsələlərə münasibət bildirmək;

3.1.55. qanunvericilikdə nəzərdə tutulmuş hallarda "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla yoxlamalar aparmaq;

3.1.56. strukturuna daxil olan idarələrin və digər struktur bölmələrin və tabeliyində olan hüquqi şəxslərin fəaliyyətini təşkil etmək və işinə nəzarəti həyata keçirmək;

3.1.57. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.58. Cəmiyyətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.59. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Cəmiyyətin əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.60. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.61. Cəmiyyətə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.62. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.63. Cəmiyyətin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək, strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.64. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.65. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.66. balansında olan hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;

3.1.67. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş su təchizatı müəssisələrinə aid digər vəzifələri yerinə yetirmək;

3.1.68. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş Cəmiyyətin fəaliyyət istiqamətlərinə aid digər vəzifələri yerinə yetirmək;

3.1.69. Azərbaycan Respublikasının beynəlxalq müqavilələri ilə tənzimlənən və qurumun səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

3.1.70. müasir informasiya texnologiyalarının və proqram təminatının tətbiqi vasitəsilə Cəmiyyətin fəaliyyətinin səmərəliliyini artırmaq;

3.1.71. dövlət orqanlarının və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Cəmiyyətin hüquqları aşağıdakılardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Agentliyə təklif vermək;

3.2.2. müvafiq sahədə beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə Agentliyə təkliflər vermək;

3.2.3. beynəlxalq təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək və xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.4. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.5. sanitar-mühafizə zonalarının yaradılması və rejiminin həyata keçirilməsi məqsədilə ölkənin rayon və şəhərlərində (iri şəhərlər istisna olmaqla) qanunvericiliklə

müəyyən edilmiş qaydada torpaq sahələri mülkiyyətçilərinin (istifadəçilərinin, icarəçilərinin), həmçinin digər şəxslərin bu zonalarda fəaliyyətlərini qadağan etmək;

3.2.6. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.8. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.10. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.11. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.12. Cəmiyyətin fəaliyyətinin inkişaf etdirilməsini, effektliliyinin və etibarlılığının yüksəldilməsini təmin etmək üçün investisiyaların cəlb edilməsi ilə bağlı təkliflər vermək;

3.2.13. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.14. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş su təchizatı müəssisələrinə aid digər hüquqları həyata keçirmək.

## 4. Cəmiyyətin nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları

4.1. Cəmiyyətin nizamnamə kapitalı 5 826 007 294 (beş milyard səkkiz yüz iyirmi altı milyon yeddi min iki yüz doxsan dörd) manatdır, onun səhmlərinin nominal dəyərindən təşkil olunur və nominal dəyəri 2 manat olan 2 913 003 647 ədəd adi, sənədsiz adlı səhmdən ibarətdir. Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

4.2. Cəmiyyətin nizamnamə kapitalı bu Nizamnaməyə uyğun olaraq təsisçi tərəfindən Cəmiyyətin mülkiyyətinə verilmiş və qanunla müəyyən edilmiş qaydada qiymətləndirilmiş aktivlərin balans dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalına qoyulan maya pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

4.3. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən, digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin əmlakı aşağıdakı mənbələr hesabına formalaşır:

4.4.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.4.2. təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən əldə olunan gəlirlər;

4.4.3. cəlb olunan investisiyalar;

4.4.4. Cəmiyyətin öz fəaliyyət prosesində əldə etdiyi əmlak;

4.4.5. qanunla qadağan olunmayan digər mənbələr.

4.5. Cəmiyyət öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun istifadə edir. Cəmiyyət öz əmlakı üzərində "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanının tələbləri nəzərə alınmaqla sahiblik, istifadə və sərəncam vermək hüquqlarını həyata keçirir.

4.6. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq Fərmana əsasən həyata keçirilir.

4.7. Cəmiyyət qanunla müəyyən edilən vergiləri və digər dövlət ödənişlərini ödədikdən sonra Cəmiyyətin, onun idarə, filial, nümayəndəliklərinin və strukturuna daxil olan qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində sərəncam vermək hüququna malikdir.

4.8. Dövlət Cəmiyyətin öhdəliklərinə görə cavabdeh deyildir və Cəmiyyətin fəaliyyəti ilə bağlı zərərə görə dövlətə məxsus səhmlərin dəyəri həddində risk daşıyır. Cəmiyyət öz öhdəlikləri üçün mülkiyyətində olan əmlakla cavabdehdir.

4.9. Cəmiyyət dövlətin üzərinə götürdüyü hər hansı öhdəliklərə görə cavabdeh deyildir.

## 5. Cəmiyyətin ali idarəetmə orqanı

5.1. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır (bundan sonra – Ümumi Yığıncaq).

5.2. Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlər Fərmana uyğun olaraq həyata keçirilir.

## 6. Cəmiyyətin Müşahidə Şurası

6.1. Cəmiyyətin Müşahidə Şurası (bundan sonra – Müşahidə Şurası) Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. Müşahidə Şurası öz fəaliyyətinin nəticələrinə görə Ümumi Yığıncaq qarşısında cavabdehlik daşıyır.

6.2. Müşahidə Şurasının səlahiyyətləri aşağıdakılardır:

6.2.1. Cəmiyyətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;

6.2.2. Cəmiyyətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarət etmək;

6.2.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə

dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Agentliyə təkliflər vermək;

6.2.4. aidiyyəti şəxslərlə bağlanılması nəzərdə tutulan və dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;

6.2.5. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Cəmiyyətin aktivlərinin idarəetməyə verilməsi ilə bağlı əqdlərin bağlanılmasına razılıq vermək;

6.2.6. Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğv edilməsinə, həmçinin törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğv edilməsinə razılıq vermək;

6.2.7. Cəmiyyətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasət, strateji planlarını və daxili qaydalarını, habelə filial və nümayəndəliklərinin əsasnamələrini və törəmə cəmiyyətlərinin nizamnamələrini təsdiq etmək;

6.2.8. Cəmiyyətin korporativ strukturuna və ştat cədvəlinə dair təkliflər vermək;

6.2.9. Cəmiyyətin Audit Komitəsini yaratmaq, onun əsasnaməsini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

6.2.10. Cəmiyyətin yardımçı komitələri (etika komitəsi, strateji planlaşdırma komitəsi, risklərin idarə edilməsi komitəsi və s.) yaratmaq və onların əsasnamələrini təsdiq etmək;

6.2.11. daxili audit xidmətinin səmərəli fəaliyyət göstərməsi üçün tədbirlər görmək;

6.2.12. Cəmiyyətin daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin səmərəli fəaliyyəti üçün aşağıdakı tədbirləri həyata keçirmək:

6.2.12.1. daxili nəzarət və risklərin idarə edilməsi siyasətini qəbul etmək;

6.2.12.2. daxili nəzarət və risklərin idarə edilməsi siyasətinin səmərəli şəkildə yerinə yetirilməsinə nəzarət etmək;

6.2.12.3. icra orqanı, risklərin idarə edilməsi və daxili nəzarət xidmətinin rəhbərlərinin daxili nəzarət və risklərin idarə edilməsinə dair hesabatlarını almaq və müzakirə etmək;

6.2.12.4. risklərin idarə edilməsi sisteminin effektivliyini təhlil etmək, qiymətləndirmək və onun yüksəldilməsi istiqamətində tədbirlər görmək;

6.2.12.5. daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyət standartlarını müəyyənləşdirmək və onların icra orqanı və digər əməkdaşlar tərəfindən tətbiq edilməsini təşviq etmək;

6.2.12.6. Müşahidə Şurasının üzvləri də daxil olmaqla, Cəmiyyətin hər bir işçisi tərəfindən məcburi icra ediləcək Korporativ Etika Məcəlləsini qəbul etmək;

6.2.12.7. Agentliyə daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyəti ilə bağlı hesabat vermək;

6.2.13. İcraçı direktorun fəaliyyəti üzərində nəzarəti həyata keçirmək, o cümlədən onun qarşısında qoyulmuş vəzifələrin icra vəziyyətinin müntəzəm olaraq yoxlanılmasını həyata keçirmək, bununla bağlı ondan hesabatları, arayışları və izahatları tələb etmək, habelə fəaliyyətini qiymətləndirmək və bununla əlaqədar müvafiq meyarları təsdiq etmək;

6.2.14. korporativ katibin fəaliyyətini tənzimləyən sənədləri qəbul etmək, onun fəaliyyətinə nəzarəti həyata keçirmək, onun fəaliyyətini qiymətləndirmək və bununla əlaqədar müvafiq meyarları təsdiq etmək;

6.2.15. daxili audit xidmətinin əsasnaməsini təsdiq etmək;

6.2.16. İcraçı direktorun, onun müavinlərinin, Cəmiyyətin filiallarının, nümayəndəliklərinin, risklərin idarə edilməsi və daxili nəzarət xidmətlərinin rəhbərlərinin, daxili audit xidməti rəhbərlərinin və üzvlərinin, korporativ katibin işə qəbuletmə, işdən azadetmə və digər əmək məsələləri barədə qərarları qəbul etmək, həmçinin tabeliyindəki

digər qurumların (təsərrüfat cəmiyyətlərin və s.) rəhbərlərin, onların müavinlərinin, cəmiyyətin filiallarının, nümayəndəliklərinin, tabeliyindəki digər qurumların baş mühəndislərin və baş mühasiblərin vəzifəyə təyin və vəzifədən azad edilməsini razılaşdırmaq;

6.2.17. Audit Komitəsi, daxili audit xidməti və kənar auditor tərəfindən aparılan auditin nəticələrini nəzərdən keçirmək, bu auditin yekunlarına görə tədbirlər görmək;

6.2.18. səlahiyyətlərinin icrası ilə bağlı, o cümlədən üzvlər arasında səlahiyyət bölgüsü, habelə yardımçı komitələrin arasında iş bölgüsü məqsədilə təşkilati-sərəncamverici sənədləri təsdiq etmək;

6.2.19. İcraçı direktorun və digər vəzifəli şəxslərin mənafelərin toqquşması zamanı davranış qaydalarını, habelə bu şəxslərin fəaliyyətinin ayrı-ayrı tərəflərini tənzimləyən təşkilati-sərəncamverici sənədlərini qəbul etmək;

6.2.20. səmərəlilik göstəricilərinin xüsusi çəkisini müəyyən və təsdiq etmək;

6.2.21. Cəmiyyətin fəaliyyətinin səmərəlilik əmsalını təsdiq etmək;

6.2.22. illik səmərəlilik göstəricilərinin proqnoz (hədəf) göstəricilərini təsdiq etmək;

6.2.23. qiymətli kağızların buraxılması barədə qərarları qəbul etmək;

6.2.24. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Nizamnamə ilə və Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

6.3. Müşahidə Şurası sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarətdir. Müşahidə Şurasının tərkibinə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 1 (bir) nümayəndəsi daxil edilməlidir.

6.4. Müşahidə Şurasının sədri Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Agentlik tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.5. Müşahidə Şurasının digər üzvləri Agentlik tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

6.6. Müşahidə Şurasının üzvlərinin səlahiyyət müddəti 3 (üç) il təşkil edir və onlar növbəti müddətlərə yenidən təyin edilə bilərlər.

6.7. Müşahidə Şurasının sədri Şuraya rəhbərlik edir.

6.8. Müşahidə Şurasının üzvləri səlahiyyətlərinə aid məsələləri icra etdikdə aşağıdakıları rəhbər tutmalıdırlar:

6.8.1. qanunvericiliklə, Cəmiyyətin nizamnaməsi və digər sənədləri ilə müəyyən edilmiş vəzifələri vicdanla və Cəmiyyətin ümumi mənafeyinə uyğun yerinə yetirmək;

6.8.2. qanunvericiliklə, Cəmiyyətin nizamnaməsi və digər sənədlərlə onlara verilmiş səlahiyyətlərdən sui-istifadə etməmək;

6.8.3. şəxsi maraqları ilə Cəmiyyətin mənafeyi arasında toqquşmalara yol verməmək;

6.8.4. istənilən potensial maraqların toqquşmasını açıqlamaq;

6.8.5. Cəmiyyətə aid olan məlumatı ictimaiyyətə açıqlanmalı olanadək məxfi saxlamaq;

6.8.6. öz səlahiyyətlərini yerinə yetirərkən, ən yüksək səviyyədə qayğı və bacarıqlarını nümayiş etdirmək.

6.9. Müşahidə Şurası fəaliyyətinin səmərəliliyini artırmaq üçün bu Nizamnamənin 6.2.9-cu yarımbəndində nəzərdə tutulmuş yardımçı komitələrdən əlavə digər yardımçı komitələr yarada və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə edə bilər. Yardımçı komitələr Müşahidə Şurasının tapşırıqlarını yerinə yetirir və Şura tərəfindən qərar qəbul etmək üçün tövsiyələr hazırlayırlar. Yardımçı komitələrin təşkili və onlara müvafiq səlahiyyətlərin həvalə edilməsi Müşahidə Şurasının səlahiyyətlərini və vəzifələrini məhdudlaşdırmır. Cəmiyyətin fəaliyyətinin xüsusiyyətlərindən asılı olaraq, yardımçı

komitələrə digər funksiyalar da həvalə oluna bilər. Zərurət yarandıqda, yardımçı komitələr kənar ekspertlər cəlb edə bilərlər.

6.10. Cəmiyyətin Müşahidə Şurasının sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Cəmiyyətin İcraçı direktorunun, şura üzvlərinin, habelə qanunla müəyyən edilə bilən digər şəxslərin tələbi ilə Müşahidə Şurasının iclası Şuranın sədri tərəfindən çağırılır.

6.11. Cəmiyyətin Müşahidə Şurasının iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər bölündükdə Müşahidə Şurası sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

6.12. Müşahidə Şurasının iclasları onun üzvlərinin bilavasitə iştirakı ilə əyani, informasiya texnologiyalarından istifadə etməklə distant, yaxud qarışıq formalarda keçirilə bilər.

6.13. Müşahidə Şurasının üzvlərinə iclasın keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

6.14. Müşahidə Şurasının iclasında İcraçı direktor iştirak edə bilər.

6.15. İclasın gündəliyinə Müşahidə Şurasının hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli və bu məsələnin müzakirəsində iştirak etməməlidir.

6.16. Gündəliyə daxil edilməmiş və ya tələb olunan bütün aidiyyəti sənədləri iclasdan əvvəl təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılığı olduğu hallar istisna olmaqla qərar qəbul edilə bilməz.

6.17. Müşahidə Şurasının iclasının nəticəsi Şura üzvlərinin və katibin imzaladıqları protokolda əks olunmaqla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur. Müşahidə Şurasının katibi Şuranın iclasında iştirak edə bilmədikdə, Şuranın sədri onu əvəz edəcək şəxsi təyin edir. Müşahidə Şurası protokolu təsdiq edərək İcraçı direktora göndərir.

6.18. Müşahidə Şurasının katibini Şuranın üzvü olmayan əməkdaşlar sırasından Şuranın sədri təyin edir. Müşahidə Şurasının katibi Şuranın sədrinə hesabat verir.

6.19. Müşahidə Şurasının katibi:

6.19.1. Müşahidə Şurasının iclaslarını təşkil edir;

6.19.2. bu Nizamnamənin 6.13-cü bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;

6.19.3. Müşahidə Şurasının iclaslarının protokollarını tərtib edir və imzalanmaq üçün Şura üzvlərinə təqdim edir;

6.19.4. Müşahidə Şurasının qərarlarının layihələrini hazırlayır, baxılmaq və imzalanmaq üçün Şura sədrinə təqdim edir;

6.19.5. Müşahidə Şurasının qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.

6.20. Müşahidə Şurasının sədri:

6.20.1. Müşahidə Şurasının işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

6.20.2. Müşahidə Şurasının iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslara sədrlik edir;

6.20.3. öz təşəbbüsü ilə, habelə Müşahidə Şurasının hər hansı digər üzvünün və ya İcraçı direktorun müraciəti əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

6.20.4. Müşahidə Şurasının fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

6.21. Müşahidə Şurasının üzvləri:

6.21.1. Müşahidə Şurasının iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

6.21.2. Müşahidə Şurasının səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təklif verirlər;

6.21.3. Müşahidə Şurasında qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

6.21.4. Müşahidə Şurasının qərarları və iclas protokolları ilə tanış olurlar.

6.22. Müşahidə Şurasının üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 7. İcraçı direktor

7.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor həyata keçirir. İcraçı direktor öz fəaliyyətində Ümumi Yığıncaq, habelə Müşahidə Şurası qarşısında cavabdehlik daşıyır.

7.2. İcraçı direktorun Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) müavini vardır.

7.3. İcraçı direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İcraçı direktorun müəyyən etdiyi müavinlərindən biri həyata keçirir.

7.4. İcraçı direktor aşağıdakı vəzifələri yerinə yetirir:

7.4.1. Cəmiyyətin fəaliyyətini təşkil edir və onu təmsil edir;

7.4.2. Ümumi Yığıncağa və Müşahidə Şurasının fəaliyyətinə dair hesabat verir;

7.4.3. Müşahidə Şurasına illik və rüblük hesabatları, gəlirlər və xərclər haqqında məlumatı, Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, strateji planların icrası barədə hesabatları, cəmiyyətin üzləşdiyi risklər və fəaliyyətinə təsir göstərə biləcək amillər haqqında məlumatı hazırlayıb təqdim edir;

7.4.4. Cəmiyyətin ayrı-ayrı sahələri üzrə siyasət və daxili qaydaları hazırlayır, onların təsdiq edilməsi üçün Müşahidə Şurasına təqdim edir, habelə bu sənədlərin icrasını təmin edir;

7.4.5. Cəmiyyətin gəlir və xərclər smetasını hazırlayır və Müşahidə Şurasına təqdim edir, habelə onun icrasını təmin edir;

7.4.6. daxili audit xidməti istisna olmaqla, Cəmiyyətin daxili struktur bölmələrinin (şöbələrin, departamentlərin) əsasnamələrini və həmin bölmələrin əməkdaşlarının vəzifə təlimatlarını təsdiq edir;

7.4.7. Cəmiyyət tərəfindən təqdim olunan mallar (işlər, xidmətlər) üzrə qiyməti tənzimlənən mallar və xidmətlər istisna olmaqla tarifləri təyin edir;

7.4.8. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Cəmiyyətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

7.4.9. işə qəbul və işdən azad edilməsi Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş şəxslər istisna olmaqla Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, tabeliyindəki digər qurumların işçilərini, Müşahidə Şurası ilə razılaşdırmaqla tabeliyindəki qurumların (təsərrüfat cəmiyyətlərin və s.) rəhbərlərini, onların müavinlərini, Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, tabeliyindəki digər qurumların baş mühəndislərini, baş mühasiblərini işə qəbul və işdən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirlərini tətbiq edir, digər əmək məsələləri barədə qərarlar qəbul edir;

7.4.10. korporativ katiblə birgə Müşahidə Şurasının iclasları üçün tələb olunan sənədləri hazırlayır;

7.4.11. Cəmiyyətin cari fəaliyyətinin idarə edilməsi üçün bütün digər məsələlər barədə qərarlar qəbul edir;

7.4.12. qanunvericiliklə və ya Cəmiyyətin nizamnaməsi ilə Cəmiyyətin digər idarəetmə orqanlarının səlahiyyətinə aid edilməmiş məsələlər barədə qərarlar qəbul edir;

7.4.13. Cəmiyyətin Nizamnaməsində, strukturunda, habelə nizamnamə kapitalında dəyişikliklərin edilməsi barədə Müşahidə Şurasına və Agentliyə təkliflər verir;

7.4.14. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Agentliyə təkliflər verilməsi üçün Müşahidə Şurasına müraciət edir;

7.4.15. Cəmiyyətin fəaliyyətinə dair illik iş proqramlarını, onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq edir;

7.4.16. Cəmiyyətin xarici şirkətlərlə birgə işinin məqsədəuyğunluğu barədə məsələlərə baxır;

7.4.17. Cəmiyyətin inkişaf strategiyasının müəyyənləşdirilməsinə dair Müşahidə Şurasına təkliflər verir;

7.4.18. Cəmiyyətin fəaliyyətində yeni texnologiyaların tətbiqi ilə bağlı qərarlar qəbul edir;

7.4.19. Cəmiyyətin daxili intizam qaydalarını müəyyən edir;

7.4.20. Cəmiyyətin törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərarlar qəbul edir

7.4.21. Cəmiyyətin digər hüquqi şəxslərə kapital qoyuluşu barədə Müşahidə Şurasına təkliflər verir;

7.4.22. Cəmiyyətin saxlanılması və ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün qanunda nəzərdə tutulmuş mənbələrdən (kreditlər, qrantlar, texniki yardımlar, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən daxilolmalar və s.) Cəmiyyətin sərəncamına daxil olan məqsədli vəsaitlərin təyinatı üzrə xərclənməsini təmin edir;

7.4.23. bu Nizamnamənin 4.5-ci bəndinə uyğun olaraq Cəmiyyətin, törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnu həyata keçirir;

7.4.24. Cəmiyyətin əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi üçün Müşahidə Şurasına təkliflər verir;

7.4.25. Müşahidə Şurası ilə razılaşdırmaqla, Cəmiyyətin kənar auditorunu təyin edir və onun audit hesabatını qəbul edir;

7.4.26. Cəmiyyətin fəaliyyət istiqamətlərinə aid yoxlamaların nəticələrinə dair tədbirlər görür;

7.4.27. Müşahidə Şurası ilə razılaşdırmaqla Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin yaradılması və ya ləğv edilməsi, həmçinin törəmə cəmiyyətlərinin yaradılması, yenidən təşkili və ya ləğv edilməsi haqqında qərarlar qəbul edir;

7.4.28. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, törəmə cəmiyyətlərinin nizamnamələrinin layihələrinin hazırlanmasını təmin edir və Müşahidə Şurasının təsdiqinə verir;

7.4.29. Cəmiyyətin idarə olunması ilə əlaqədar daxili sənədlərin layihələrinin hazırlanmasını təmin edir;

7.4.30. Cəmiyyətin idarəetmə orqanlarının qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;

7.4.31. etibarnamələr verir, banklarda hesablaşma hesabı və digər hesablar açır, hesabları və tədiyə tapşırıqlarını imzalayır;

7.4.32. Cəmiyyətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncamlar, əmrlər və göstərişlər verir;

7.4.33. Cəmiyyətdə, törəmə cəmiyyətlərində, habelə idarə, filial və nümayəndəliklərində maliyyə məsələləri, kadr, təchizat və digər idarəetmə qaydalarının və standartlarının tətbiqi ilə bağlı müvafiq tədbirlər görür;

7.4.34. fəaliyyət istiqamətlərinə uyğun olaraq komissiyalar, komitələr və işçi qruplar yaradır;

7.4.35. Cəmiyyətin törəmə cəmiyyətləri, idarə, filial və nümayəndəlikləri arasındakı münasibətlərin tənzimlənməsini təmin edir;

7.4.36. Cəmiyyətin törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin işinin təşkilini və onların təsdiq edilmiş gəlir və xərclər smetası üzrə xərclərinin ödənilməsini həyata keçirir;

7.4.37. Cəmiyyətin fəaliyyətini səmərəli təşkil etmək üçün hüquqi şəxs yaratmaqla (birgə müəssisələr) və ya hüquqi şəxs yaratmadan birgə layihələrinin həyata keçirilməsi barədə Müşahidə Şurasına təkliflər verir və bu layihələri idarə edir;

7.4.38. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

7.4.39. Cəmiyyətdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

7.4.40. Cəmiyyətdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir;

7.4.41. Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar qəbul edir.

7.5. İcraçı direktorun mükafatlandırılması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı ilə təsdiq edilmiş “Paylarının (səhmlərinin) nəzarət

zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin nəticələrinə əsaslanan ödəniş sistemi əsasında hüquqi şəxslərin idarəetmə orqanlarının üzvlərinə bonus ödənişinin verilməsi Qaydası" ilə tənzimlənir.

## 8. Cəmiyyətdə uçot, hesabat və nəzarət

8.1. Cəmiyyət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

8.2. Cəmiyyət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir. Cəmiyyət maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq tərtib edir.

8.3. Cəmiyyətin maliyyə ili yanvarın 1-dən başlayır və dekabrın 31-də başa çatır (birinci maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır).

8.4. Cəmiyyət xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanılması barədə məlumatı mətbu orqanda dərc etdirməli və Cəmiyyətin internet səhifəsində yerləşdirməlidir.

8.5. Cəmiyyət törəmə cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasının aparılmasını təmin edir.

8.6. Müşahidə Şurasının sədri və üzvləri, İcraçı direktor, habelə Cəmiyyətin struktur bölmələrinin (filial, nümayəndəlik, idarə və s.) rəhbərləri özlərinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1.5–49-1.7-ci maddələri ilə müəyyən edilmiş qaydada təqdim etməlidirlər.

## 9. Daxili audit

9.1. Cəmiyyət daxili audit xidmətini təsis edir. Daxili audit xidməti "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələri yerinə yetirir.

9.2. Daxili audit xidmətinin əməkdaşları öz funksiyalarını yerinə yetirərkən, müstəqil qiymət verməк və nəticə çıxarmaq hüququna malikdirlər.

9.3. Cəmiyyətin bütün əməkdaşları daxili auditi həyata keçirən əməkdaşların tələbi ilə zəruri olan sənədləri təqdim etməli, onlara öz vəzifələrinin icrası üçün lazımi şərait yaratmalıdırlar.

9.4. Cəmiyyətdə daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün Müşahidə Şurası tərəfindən Audit Komitəsi yaradılır. Cəmiyyətin fəaliyyətinin daxili auditi Audit Komitəsinin təşəbbüsü əsasında İcraçı direktorun qərarı ilə həyata keçirilir. Audit Komitəsinin üzvləri öz fəaliyyətlərində müstəqildirlər və öz funksiyalarını icra edərkən onların müstəqil qiymət verməк, nəticələr çıxarmaq hüququ

vardır. Cəmiyyətin İcraçı direktoru və ya Cəmiyyətin iştirakçıları Audit Komitəsinin üzvü ola bilməzlər. Audit Komitəsinin üzvlərinin səlahiyyət müddəti 2 (iki) ildir.

9.5. Cəmiyyətin Audit Komitəsinin üzvləri "Daxili audit haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tələblərə cavab verməlidirlər.

9.6. Audit Komitəsi aşağıdakı vəzifələri yerinə yetirir:

9.6.1. Cəmiyyətdə daxili audit siyasətini və strategiyasını müəyyən edir, daxili audit planlarını təsdiq edir və daxili audit fəaliyyətinə nəzarət edir;

9.6.2. daxili audit xidmətinin rəhbərinin və əməkdaşlarının vəzifə təlimatlarını, proqramlarını, daxili auditin hesabatlarını, nəzarət sisteminin təkmilləşdirilməsinə dair tövsiyələri təsdiq edir;

9.6.3. daxili nəzarət sisteminin yaradılmasına və tətbiqinə, daxili nəzarətin və risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsinə dair Müşahidə Şurasına təkliflər verir;

9.6.4. kənar auditin təyin edilməsi ilə əlaqədar İcraçı direktora təkliflər verir;

9.6.5. Cəmiyyətin İcraçı direktordan kənar və daxili auditorların daxili nəzarət sisteminə dair verdikləri tövsiyələrin yerinə yetirilməsinin vəziyyəti barədə məlumat əldə edir;

9.6.6. maliyyə risklərinin yüksək olduğu sahələri müəyyənləşdirir və Cəmiyyətin İcraçı direktor tərəfindən onların səmərəli idarə edilməsinə əminlik əldə edir;

9.6.7. kənar və daxili audit və ya digər yoxlamaların gedişində aşkar olunan saxtakarlıq hallarını, nöqsan və çatışmazlıqları müzakirə edir və onların aradan qaldırılması üçün İcraçı direktora təkliflər verir;

9.6.8. maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir edə biləcək hüquqi məsələləri nəzərdən keçirir və öz tövsiyələrini verir;

9.6.9. müəssisənin illik və cari maliyyə hesabatlarının hazırlanması prosesinə və nəticələrinə nəzarət edir;

9.6.10. daxili auditorların audit nəticəsində təqdim etdiyi tövsiyələrin müzakirəsini təmin edir;

9.6.11. Cəmiyyətin İcraçı direktorunu daxili auditorlar tərəfindən təqdim olunmuş tövsiyələrin icrasına cəlb edir.

## 10. Cəmiyyətin müstəqil (kənar) auditi

Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

## 11. Cəmiyyətin yenidən təşkili və ləğvi

Cəmiyyətin yenidən təşkili və ya ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.